EUROASIA JOURNAL OF SOCIAL SCIENCES & HUMANITIES | ISSN: 2651-5261

Arrival Date: 30.12.2020 | Published Date: 25.05.2021 | Vol: 8, Issue: 3 | pp: 32-37 | Doi Number: http://dx.doi.org/10.38064/eurssh.190

# Milli ƏDƏBİ TƏNQİDİN MEYAR AXTARIŞLARI

*CRITERIA SEARCHES OF NATIONAL LITERARY CRITICISM*

MİLLİ YAZINSAL ELEŞTİRİNİN MİYAR ARAMALARI

**Vüsalə CAVADOVA**

*Lənkəran Dövlət Universiteti, doktorant, vusala_h@mail.ru*

## XÜLASƏ

Azərbaycan ədəbi tənqidinin ozünəməxsus, spesifik ənənələri var. Məqalədə ədəbi tənqidin konkret mərhələsinin ideya-estetik dəyərləri tədqiq olunur. XX əsrin 40-50-ci illərində ədəbi tənqiddə özünü göstərən müsbət tendensiyalar, klassik və müasir ədəbi irsə qiymət vermə prinsipləri üzə çıxarılır. Ayrı-ayrı ədəbiyyat tənqidçilərinin 40-50-ci illərdə ədəbi prosesdə oynadığı rol obyektiv tarixi mövqedən təhlil olunur.

Ədəbi-estetik fikir dinamik, mütəhərrik və dəyişkəndir. Dövrün ictimai-siyasi şəraitinə uyğun olaraq dəyişir və yeni forma və məzmun alır, dövrün yeni fikri cərəyanlarını ifadə etməyə can atır. Xüsusilə bu dəyişmə və inkişaf o zaman əhəmiyyət kəsb edir ki, ədəbiyyatşünaslığın predmetinə, ictimai hadisələrə yanaşma tərzində özünü göstərir, fəlsəfi və metodoloji istiqamətləri müəyyənləşir. Ədəbiyyatşünaslıqdakı bu dəyişmələr təfəkkür hadisəsidir, dünyagörüşü prinsiplərinə uyğundur. Əsas humanitar elmlər sırasına daxil olan və burada çox mühüm yer tutan, cəmiyyətin mənəvi həyatında fəal və təsirli rol oynayan elmlərdən biri də ədəbi-nəzəri fikir tarixidir. Nəticə olaraq deyə bilərik ki, bütün dövrləri kimi, tənqid və ədəbiyyatşünaslıq tariximizin 40-50-ci illər mərhələsi də dinamik, mütəhərrik və dəyişkəndir.

Müxtəlif dövrlərdə olduğu kimi, 40-50-ci illərdə də ədəbi tənqid üç mühüm vəzifəni yerinə yetirib: Birincisi, ədəbi prosesi izah etmək, onu qiymətləndirmək, ədəbi prosesin qanunauyğunluqlarını üzə çıxarmaq; ikincisi, sənətin yaratdığı estetik və etik çərçivələri təbliğ etmək, oxucularda onlara dərin məhəbbət hıssi oyatmaq; üçüncüsü, sənət hadisələrinin təhlili vasitəsi ilə həyatın zəruri fəlsəfi, sosioloji etik və estetik məsələlərini həll etmək.

Əlbəttə, estetik fikrimizin 40-50-ci illər mərhələsinin elmi-nəzəri səviyyəsini bu üç meyarla qiymətləndirsək, deyə bilərik ki, ədəbi tənqid və ədəbiyyatşünaslığımız ədəbi proses qarşısındakı vəzifələrini ləyaqətlə yerinə yetirib. Ədəbi prosesdə 60-cı illərdə demokratikləşdirməyə gedən prosesin əsası 50-ci illərin sonundan başlandığı kimi, ədəbi tənqid və ədəbiyyatşünaslıqda da yeniləşmə bir qədər əvvələ təsadüf olunurdu. Hətta belə demək mümkündür ki, ədəbi tənqid və ədəbiyyatşünaslığımızda yeni dövrün nəfəsi M.C.Cəfərovun “Ədəbi düşüncələr” (1958) kitabı ilə gəldi.

**Açar sözlər:** ədəbi tənqid, bədii yaradıcılıq, B.Nəbiyev, ədəbi proses, ədəbiyyat nəzəriyyəsi

## ÖZET

Azerbaycan yazınsal eleştirinin kendisine özgün, spesifik gelenekleri vardır. Yazıda yazınsal eleştirinin belirli aşamasının düşünce estetik değerleri uygulanmaktadır. XX yüz yılın 40-50. yıllarında yazınsal eleştiride kendisini gösteren olumlu eğilimler, klasik ve modern yazınsal mirası değerlendirme ilkeleri ortaya çıkmaktadır. Ayrı-ayrı edebiyat eleştiricilerinin 40-50. yıllarda yazınsal süreçte oynadığı rol objektif tarihi açıdan araştırılmaktadır.

Yazınsal-estetik düşünce dinamik, hareketli ve değişkendir. Çağın toplumsal-politik ortamına uygun olarak değişmekte ve yeni şekil ve içerik almakta, dönemin yeni düşünce akımlarını atlatmaya çalışmaktadır. Özellikle, bu değişim ve gelişim o zaman önem taşımakta ki, yazınbilimi konusuna, toplumsal olaylara yaklaşım tarzında kendisini göstermekte, felsefi ve yöntembilimsel yanlar belirlenmektedir. Yazınbilimindeki bu değişimler tefekkür olayıdır, dünya görüşü ilkelerine uygundur. Esas sosyal bilimler sırasına giren ve burada çok önemli bir yer alan, toplumun manevi hayatında etkin ve etkili yeri olan bilimlerden biri de yazınsal teorik düşünce tarihidir. Sonuç olarak böyle kanaate varmaktayız ki, tüm dönemler gibi, eleştiri ve yazınbilimi tarihimizin 40-50. yıllar aşaması da dinamik, hareketli ve değişkendir.

Farklı dönemlerde olduğu gibi, 40’lı ve 50’li yıllarda da edebi eleştiri üç önemli rol oynamıştır: İlk önce, edebi süreci aydınlatmak, onu değerlendirmek, edebi sürecin düzenlemelerini ortaya çıkarmak; ikinci,

sanatın yarattığı estetik ve etik çerçeveleri tanıtmak, okuyucularda onlar için derin sevgi oluşturmak; üçüncü, sanat olaylarının tahlil edilmesi yoluyla hayatın gerekli felsefi, sosyolojik, etik ve estetik sorunlarını çözmek. Elbette, estetik düşüncemizin 40'lı ve 50'li yıllar döneminin bilimsel-teorik seviyesini bu üç kriter ile değerlendirirsek edebi eleştiri ve edebiyat biliminin edebi süreç karşısındaki görevlerini haysiyetle gerçekleştirdiğini söyleyebiliriz. 60'larda edebi süreçte demokratikleşmeye doğru giden sürecin temeli 50'lerin sonlarında başladığı gibi edebi eleştiri ve edebiyat biliminde de yenileşme bir süre öncelere tesadüf etmiştir. Hatta şunu da belirtmemiz mümkündür ki, edebi eleştiri ve edebiyat biliminde yeni dönemin nefesi M.C.Cafarov'un "Edebi düşünceler" (1958) isimli kitabı ile gelmiştir.

**Anahtar kelimeler:** yazınsal eleştiri, bedii yaratıcılık, B.Nabiyev, yazınsal süreç, edebiyat teorisi

**ABSTRACT**
Azerbaijani literary criticism has its own specific traditions. The article examines the ideological and aesthetic values of a particular stage of literary criticism. The positive tendencies manifested in literary criticism in the 40s and 50s of the twentieth century, the principles of valuing classical and modern literary heritage are revealed. The role of individual literary critics in the literary process of the 40s and 50s is analyzed from an objective historical point of view.

Literary-aesthetic thought is dynamic, lively and changeable. It changes in accordance with the socio-political conditions of the time and takes on a new form and content, trying to express the new currents of thought of the time. This change and development is especially important when it manifests itself in the approach to the subject of literary criticism, social events, philosophical and methodological directions are determined. These changes in literary criticism are a phenomenon of thinking, in accordance with the principles of worldview. The history of literary-theoretical thought is one of the basic humanities, which occupies a very important place and plays an active and influential role in the spiritual life of society. As a result, we can say that, as in all periods, the 40s and 50s of our history of criticism and literary criticism are dynamic, lively and changeable.

Like in different periods, literary criticism has also played three important roles in the 40s and 50s: First, to explain the literary process, to assess it, to find the regularities of the literary process out, second, to disclose the aesthetic and ethical frameworks created by art, to trigger deep love in readers for them; third, to solve the necessary philosophical, sociological, ethical and aesthetic issues of life by the analysis of art events.

Of course, if we evaluate the scientific-theoretical level of our aesthetic thought in the 40's and 50's with these three criteria, we can state that literary criticism and literary science have fulfilled their tasks in the literary process dignifiedly. As the foundation of the process leading to democratization in the 60s has started in the late 50's, the renewal in literary criticism and literary science also occurred a while ago. We can also state that the breath of a new era in literary criticism and literary science has came with "Literary Thoughts" (1958) by M.J.Jafarov .

**Keywords:** literary criticism, artistic creativity, B.Nabiyev, literary process, literary theory.

**Aktuallıq**
Milli humanitar fikrin öyrənilməsi bu gün sürətlə qloballaşan dünyada milli-mənəvi dəyərlərin qorunması işinin tərkib hissələrindəndir. Humanitar fikrimizin miqyaslı, çəkili və zəngin sahələrindən biri də ədəbi-nəzəri fikrimizdir. Bu elmin düşüncə sistemi, tədqiqat üsulları dövrün istər siyasi-ideoloji, istərsə də mənəvi-mədəni tələbləri haqqında çox şey deyir. Odur ki, 40-50-ci illər ədəbi-nəzəri fikrimizin tədqiqat müstəvisinə çıxması həm milli-mənəvi dəyərlərimizi, həm də dövrün tənqid və ədəbiyyatşünaslıq elminin tarixi təcrübəsini öyrənmək xüsusi əhəmiyyət kəsb edir.

Ədəbiyyatşünaslığımızın 40-50-ci illər elmi-ədəbi irsini araşdırmaq milli humanitar fikri öyrənmək, sovet dövrü ədəbi-tarixi prosesinin problem və istiqamətlərini araşdırmaq, yeni ədəbi-tarixi mərhələyə-müstəqilliyə keçidin şərtləndirdiyi reallıqları dərk etmək baxımından aktuallıq kəsb edir. Həmin dövr elmimizin ədəbi-nəzəri sisteminin zənginləşməsində əvəzsiz rol oynayıb.

Bu gün istər klassik, istərsə də çağdaş ədəbiyyatın araşdırılmasında 40-50-ci illər ədəbiyyatşünaslıq konsepsiyalarının, tədqiqat üsullarının tətbiqi səmərəlidir. Ona görə də bu konepsiyaların, üsulların dərki milli ədəbiyyatşünaslıq ənənələrini müəyyənləşdirməkdə, konkret bir ədəbi mərhələnin ədəbi irs təliminin dərkində müəyyən imkanlar yaradır.

40-50-ci illər elmi-ədəbi irsi dövrünün ədəbiyyatşünaslıq elminin inkişaf qanunauyğunluqlarını, düşüncə sferasını özündə ehtiva etdiyindən onun elmi-nəzəri müstəvidə araşdırılması həm də bu elmin problemlərinin dərkini şərtləndirir. Beləliklə, dövrün elmi-ədəbi irsinin öyrənilməsi ədəbiyyatşünaslıq elmimizin fundamental məsələlərinə münasibət bildirmək deməkdir.

40-50-ci illər ədəbi tənqidin istiqamətini, tipologiyasını tədqiq etmək ancaq tənqidin sferasında, kateqoriyalarında və təfəkküründə ədəbi irsi öyrənmək deyil, geniş mənada yanaşsaq, xalqın, dövrün, ictimai-siyasi fikrin tarixini, fəlsəfi təfəkkür tarixini üzə çıxarmaq deməkdir. Bu dövrün ədəbi tənqidi Azərbaycan xalqının ictimai-siyasi, fəlsəfi fikir tarixi ilə vəhdətdədir.

**Metod**
Məqalədə əsasən təsviri metoddan istifadə olunub.
Azərbaycan ədəbi tənqid və ədəbiyyatşünaslığı milli ideologiyanın, dövlətçilik ənənələrinin, milli məfkurənin yaranması və formalaşmasında müstəsna rol oynayıb. Milli dövlət quruculuğunun yaradıcıları Əli bəy Hüseynzadə, Ə.Ağayev, M.Ə.Rəsulzadə, Ə.Topçubaşov fəaliyyətlərinin müəyyən mərhələsində ədəbi tənqidi əsərlər yazıb, ictimai rəyi istiqamətləndiriblər.

Ümumilli liderimiz H.Əliyevin ədəbi irsə münasibəti onun klassik və müasir ədəbi-tənqidi irsə verdiyi tələblər və dəyərlərlə bağlı idi. O deyirdi: “Şübhəsiz ki, insanlara şer qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur. Bu vasitədən xalqımız keçmişdə də istifadə edibdir” (1,25).

Müxtəlif dövrlərdə olduğu kimi, 40-50-ci illərdə də ədəbi tənqid üç mühüm vəzifəni yerinə yetirib: Birincisi, ədəbi prosesi izah etmək, onu qiymətləndirmək, ədəbi prosesin qanunauyğunluqlarını üzə çıxarmaq; ikincisi, sənətin yaratdığı estetik və etik çərçivələri təbliğ etmək, oxucularda onlara dərin məhəbbət hıssi oyatmaq; üçüncüsü, sənət hadisələrinin təhlili vasitəsi ilə həyatın zəruri fəlsəfi, sosioloji etik və estetik məsələlərini həll etmək.

Əlbəttə, estetik fikrimizin 40-50-ci illər mərhələsinin elmi-nəzəri səviyyəsini bu üç meyarla qiymətləndirsək, deyə bilərik ki, ədəbi tənqid və ədəbiyyatşünaslığımız ədəbi proses qarşısındakı vəzifələrini ləyaqətlə yerinə yetirib. Ədəbi prosesdə 60-cı illərdə demokratikləşdirməyə gedən prosesin əsası 50-ci illərin sonundan başlandığı kimi, ədəbi tənqid və ədəbiyyatşünaslıqda da yeniləşmə bir qədər əvvələ təsadüf olunurdu. Hətta belə demək mümkündür ki, ədəbi tənqid və ədəbiyyatşünaslığımızda yeni dövrün nəfəsi M.C.Cəfərovun “Ədəbi düşüncələr” (1958) kitabı ilə gəldi.

Ədəbi tənqid təbiəti etibarilə mütəhərrik, dəyişkən və dinamikdir. 40-50-ci illər ədəbi tənqidi də Azərbaycanda gedən siyasi, ictimai-sosial hadisələrlə bağlı olaraq yeniləşir, müasir elmi əsaslara söykənirdi. Dəyişmə, yeniləşmə daha çox tənqidin ictimai hadisələrə yanaşma metodologiyasında özünü biruzə verirdi. Bu mənada ədəbi tənqiddəki dəyişmələr, yeniləşmələr təfəkkür hadisəsi kimi özünü göstərirdi.

Bədii yaradıcılığın dinamik inkişafı, obrazlar sisteminin yeniləşməsi, bədii təsvir və ifadə vasitələrinin zənginləşməsi, bədii qəhrəman tipinin dəyişməsi ədəbi tənqidin tarixi-nəzəri dərkinin müasirləşməsini tələb edirdi. Ədəbi-nəzəri fikrin "cəbhə xətti" genişlənir, böyüyür, ədəbi prosesdə baş verən dinamik inkişaf xətti, bədii düşüncə faktorunun çevik forma alması, həyatın fəlsəfi dərkinə meylin artması, ədəbi tənqidin də ideya-estetik və metodoloji cəhətdən müasirləşməsini zəruri etmişdi. XX əsrin 40-50-ci illərində Azərbaycan tənqid və ədəbiyyyatşünaslığı özünün yeni mərhələsinə qədəm qoydu.

Həmin dövrdə də Sovet ideologiya maşınının təzyiqləri ədəbi tənqidə bədii yaradıcılıqdakı sənətkarlıq məsələlərini üzə çıxarmağa imkan vermirdi. Nəticədə ədəbi-bədii əsərlərin təhlili bəzən

səthi sosioloji münasibətdən uzağa getmir, bədii əsərin mövzusu, məzmunu, qəhrəmanların davranışını, söylədiyi sözlərin əhəmiyyəti açıqlanır, yazıçıların əvvəlki əsərlərinin adları sadalanırdı. Bədii yaradıcılıqdan bəhs edən elmi məqalələrdə müəyyən ictimai məsələdən bəhs edən bir tarix, fəlsəfə kitabının, kənd təsərrüfatı planlarının və ya bədii əsərlərin təhlil edildiyini müəyyənləşdirmək çətin olurdu. Belə əsərlərdə bədii əsərin xüsusiyyətləri, təbiəti, mahiyyəti göstərilmirdi. Bu cür təhlillər yazıçıya da, oxucuya da heç nə vermirdi. Nəticədə yaxşı əsərlərlə zəif əsərlər bir çox hallarda eyni mövqedən ya təriflənir, ya da tənqid olunurdu. Hətta onu deyək ki, əsərlərin, ədəbi-tarixi prosesin izahında birtərəfliliyə yol verilirdi.

Əslində bədii ədəbiyyat və bütün sənət əsərləri tarixə, həyata, ədəbi faktlara illüstrasiya deyil, gözəlliklər dünyasıdır, həyatın, varlığın yazıçı tərəfindən dərk olunan obrazıdır. Ədəbiyyat yeni nəslin həm məfkurəvi, həm də bədii zövqünün formalaşdırılmasında mühüm amildir. 40-50-ci illər tənqidi ədəbiyyatın, ədəbi-nəzəri fikrin missiyasının həyata keçirilməsi yollarında inadla ənənələrimizin yaranmasına nail olurdu.

40-50-ci illər ədəbi prossesində ədəbi tənqidçilərə münasibətdə ciddi ayrıseçkiliyə yol verilirdi. Belə ki, şairlərin, yazıçıların əsərlərinin nəşrinə, təbliğinə hər il milyonlarla manat pul xərcləndiyi halda, eyni qayğı tənqidçilərə göstərilmirdi. Təxminən həmin dövrün iyirmi ilini nəzərdən keçirsək, cəmi 5-6 ədəbi tənqidi məqalələr toplusunun işıq üzü gördüyünün şahidi olarıq.

Təbii ki, ədəbi-tənqidi materialların vaxtlı-vaxtında çap edilməməsi ədəbi tənqidin normal inkişafına imkan vermirdi. Ancaq buna baxmayaraq, tənqidçilərimiz dövrü mətbuatda vaxtaşırı yazılar dərc etdirir, ədəbi prossesin vacib tələblərinə cavab verməyə çalışırdılar.

40-50-ci illərdə ədəbi prosesdə belə bir fikir formalaşdırılmışdı ki, ədəbi tənqid ədəbi prosesin ümumi inkişafından geridə qalır, müasir mövzuda yazılan əsərlər vaxtında təhlil olunmur, əldə olunan nailiyyətlər ümumiləşdirilmir, çağdaş ədəbiyyatla bağlı nəzəri baxımdan diqqətəlayiq elmi əsərlər az yazılır. Tənqiddə prinsipiallıq lazımi səviyyədə deyil, problematik məsələlərə diqqət yetirilmir. Ədəbi tənqidin geridə qalmasının səbəbləri, tənqidin inkişafını ləngidən maneələr daim diqqət mərkəzinə gətirilirdi.

Xüsusən Azərbaycan yazıçılarının III qurultayında bu məsələ geniş miqyasda gündəmə gəlmişdi. Belə fikir irəli sürülürdü ki, əvvəl daha fəal görünən M.Arif, M.C.Cəfərov, H.Orucəli kimi tənqidçilər son dövrlərdə ədəbi tənqiddə fəallığını azaldıb. M.Əlioğlu, Ə.Hüseynov, P.Xəlilov, B.Nəbiyei kimi gənc tənqidçilər isə daha çox resenziyaya meyl edir. Belə ki, ədəbi hadisələri ümumiləşdirib sənətkarlıq məsələlərini dərindən təhlil edən məqalələr az yazılır. Yazılan məqalələrin əksəriyyəti təsviri xarakter daşıyır. Məzmun təhlilinə daha çox meyl edilir. Azərbaycan Yazıçılarının III qurultayı ərəfəsində, eləcə jə qurultayadakı çıxışlarda qeyd olunurdu ki, tənqidçilərin bəzilərinin yaxalarını kənara çəkmələri, ədəbi prosesə laqeyd münasibəti, ədəbiyyatımızın müvəffəqiyyətlərini və nöqsanlarını vaxtında elmi şəkildə konkret təhlil yolu ilə göstərməməsi ciddi narahatçılıq yaradır. Hətta mərkəzi mətbuat orqanlarında yazıçı təşkilatlarının və onların mətbuat orqanlarının çoxunda tənqidə diqqət yetirməməsi diqqətə çatdırılırdı.

40-50-ci illərdə çapdan çıxan ədəbi tənqid irsi sırasında H. Mehdinin “Ədəbi qeydlər” (1947), yenə “Ədəbi qeydlər” (1954), M.Arifin “Ədəbi tənqidi məqalələr (1958)” topluları haqqında ayrıca danışmağa ehtiyac var. H. Mehdi 30-cu illərdə olduğu kimi, 40-50-ci illərdə də ədəbi prosessdə fəal iştirak edir, müntəzəm olaraq dövrü mətbuata maraqlı məqalələr yazır, ədəbi prossesi istiqamətləndirmək işində xüsusi fəallıq göstərirdi. Onun “Ədəbi qeydlər” (1947) əsəri bu fəallığın, ədəbiyyata, sənətə olan sevgisinin təzahürü kimi maraqlıdır.

40-cı illərdə müharibənin yeniyetmə və gənclərin şüurunda, düşüncəsində hansı yeniliklər yaratması, ekstremal şəraitdə onların psixoloji-mənəvi ovqatında əmələ gələn dəyişiliklər həm bədii düşüncənin, həm də ədəbi-nəzəri fikrin əsas qayğılarından biri idi. Bu təkcə uşaq ədəbiyyatı və onun ədəbi tənqiddəki dərki ilə məhdudlaşmırdı. Hətta deyə bilərik ki, Azərbaycan ədəbi tənqidinin əsas mövzularından biri kimi meydana çıxmışdı. H.Mehdinin “Ədəbi qeydlər” (1947) kitabı “Ədəbiyyat və gənclik” məqaləsi ilə başlayırdı.

Ədəbiyyat və gənclik probleminin mahiyyətinə nüfuz edən tənqidçi klassik ədəbiyyatımızda bu məsələnin qoyuluşuna ümumi bir nəzər yetirir, xüsusən XIX əsrdə maarifçi-realist ədəbiyyatda gəncliyin böyük bir nəslinin obrazının yardılmasını diqqətə çatdırır, bu sahədə M.F.Axundzadənin daha çox fəallıq göstərdiyi qeyd edirdi. Bununla kifayətlənməyən müəllif mövzunun nə qədər vacib, aktual olduğunu əsaslandırmaq üçün dünya ədəbiyyatına müraciət edir, Floberin, A.Turgenevin, L.Tolstoyun dahiyanə əsərlərində problemin qoyuluşunu və həllini yüksək elmi səviyyədə təhlildən keçirirdi.

40-cı illərdən başlayaraq konfliktsizlik nəzəriyyəsi Azərbaycan ədəbiyyatının normal inkişafına imkan vermirdi. Bunun mənfi nəticələri rus sovet ədəbiyyatı ilə yanaşı, müttəfiq respublikalardakı ədəbi prosesə də mənfi təsirini göstərdi. Konfliktsizlik nəzəriyyəsinin təsiri altında yazılan əsərlərdə həyat ancaq müsbət boyalarla təsvir olunur, əsərlərdə heç bir konflikt və yaxud nöqsan görünmürdü. Bir qayda olaraq süjet xətti bütünlükdə müsbət olan, lakin ayrı-ayrı mərhələlərdə bir-birinin fikri ilə bir o qədər də razılaşmayan adamların arasındakı "ziddiyyət" üzərində qurulurdu. Təbii ki, yeniliklə köhnəlik arasındakı əsil mübarizədən, insanlardakı mənfi keyfiyyətlərlə yeni insani sifətlər arasındakı mübarizədən uzaq olan və çox zaman müəllifin özü tərəfindən quraşdırılan bu "ziddiyyətlər" heç bir zaman bədii əsər üçün, xüsusən dramatik əsərlər, povestlər, romanlar, poemalar və hekayələr üçün real və həyati konflikt ola bilməzdi.

Bu da qeyd edilməlidir ki, konfliktsizlik yalnız əsərlərin süjet xətti ilə məhdudlaşmırdı, eyni zamanda hadisələrin ümumi istiqaməti, mahiyyəti təhrif olunurdu. Obrazların xarakteri və fəaliyyəti solğun qələmə alınırdı. M.Əlizadənin "Qılınc dağında", "Su aydınlıqdır", Həmid Axundlunun "Ağır günün dostları" Yusif Şirvanın "Vətəndaş" əsərlərində konfliktsizlik nəzəriyyəsinin izləri görünür.

İ.V.Stalinin "Marksizm və dilçilik məsələləri" əsəri 40-50-ci illər tənqid və ədəbiyyatşünaslığı üçün də nəzəri-metodoloji rol oynadı. Əsər ancaq dilçilik məsələlərini əhatə etmirdi, həm də sovet ədəbiyyatı və ədəbiyyatşünaslığının gələcək inkişafını istiqamətləndirirdi. Əsas məsələ bunda idi ki, İ.V.Stalin həmin əsərində ədəbiyyatın sinfiliyi məsələsini yenidən gündəmə gətirmiş, hələ 1929-cu ildə yazıçı Bill-Belotserkovuskiyə yazdığı məktubundan "Bədii ədəbiyyatda sinfi xasiyyətdə olan anlayışlardan istifadə etmək daha doğru olardı"-fikrini bir qədər genişləndirmişdi.

Şübhəsiz ki, ədəbi hadisələrə sinfi nöqteyi-nəzərədən yanaşma marksizm-leninizm klassiklərinin ictimai-siyasi görüşlərindən qaynaqlanırdı. Hələ 20-30-cu illərdə marksist tənqid və ədəbiyyatşünaslıq M.F.Axundzadəni "kapitalistləşməkdə olan varlı təbəqənin ideoloqu", S.Ə.Şirvaninini ruhani şairi, C.Məmmədquluzadəni "maarifçi xırda burjua şairi" hesab edir, N.Vəzirov və A.Səhhət isə böyük burjua təsiri altında qalan xırda burjua şairi kimi qələmə verirdi.

Bir qədər sonra, daha dəqiq desək, Sovet Yazıçılarının I qurultayı ərəfəsində ədəbi təfəkkürə bu cür ifrat yanaşma meyilləri "vulqar sosiologizm", nihilizm" hesab edilərək, kəskin tənqidə məruz qaldı, klassik və müasir ədəbi irsə sayğılı münasibət bəslənilməsinin gərəkli olduğu iddia edildi. Ancaq bu da vəziyyəti düzəltmirdi.

Vulqar sosiologizmin klassik və müasir ədəbiyyata münasibətdə ifrat tələblərinin pislənildiyi, hətta zərərli meyl və təmayül kimi kəskin etirazla qarşılandığını görən tənqidçi və ədəbiyyatşünaslar bir qədər ehtiyatlı münasibət bildirməyə, ədəbi irsi olduğu kimi, təftişsiz tədqiq və təbliğ etməyə başladılar. Bəllidir ki, bu cür əsərlərin bir qismi marksizm ideologiyasına uyğun gəlmirdi. Odur ki, sosialist realizm yaradıcılıq metodunun ideoloqları və nəzəriyyəçiləri bunu da məqbul hesab etmirdilər.

Məsələ bunda idi ki, əgər vulqar sosioloqlar bütün yazıçıları bu və ya digər ictimai qruplar və siniflərə bağlayırdılarsa, növbəti mərhələdə-30-cu illərin sonu 40-cı illərdə fəaliyyət göstərən tənqidçilər ədəbiyyatın inkişaf prosesini "vahid axın" kimi qələmə verərək, bütün yazıçıları "xalqın böyük yazıçısı", "xalq ruhunun ifadə edicisi", "xalq mənafeyinin müdafiəçisi" adlandırmağa başladı.

Əslində burda qeyri-adi heç nə yox idi. Çatışmayan o idi ki, marksist estetiklərin əsaslandığı klassik sənətkarlar yetişdirən ictimai mühit, sinfi mövqe siniflər mübarizəsi aradan qaldırılırdı. 1942-1943-cü illərdə çapdan çıxan "Müxtəsər Azərbaycan ədəbiyyatı tarixi" əsərinə qarşı olan hücumlardan biri məhz bununla

bağlı idi. O dövr üçün mükəmməl görünən bu əsərin "vahid axın" nəzəriyyəsi ilə əlaqələndirilməsi, bu nöqteyi-nəzərdən redaktorların və müəlliflərin haqsız hücumlarla qarşılanması əslində ədalətsizlik idi.

"Marksizm və dilçilik" əsərində ədəbi proses üçün gərəkli cəhətlər də diqqəti cəlb edirdi. Hər şeydən əvvəl, sənətkarların əsərlərində bədii dilin, bədii ifadə vasitələrinin inkişafına, zəngin olmasına, xalq yaradıcılığından, klassik ədəbiyyatın zəngin ənənələrindən bacarıqla istifadə etməyə təminat verilirdi. Ancaq bütün bunlar sonda ədəbiyyatın sinfiliyi çərçivəsində həll olunduğu üçün söz sənətini çərçivəyə salırdı.

Ü.İ.K. (b) P Mərkəzi Komitəsinin "Zverda və Leninqrad" məcmuələri haqqında" 1946-cı il 14 avqust tarixli qərarında məcmuənin ciddi məfkurə səhvləri buraxdığı iddia olunurdu. Bolşevik partiyasının tarixi sənəd kimi qəbul etdiyi bu qərarda göstərilirdi ki, hər cür məfkurəçilik, siyasi həyatdan kənarda qalmaq, "sənət sənət üçündür" fikirlərini yaymaq sovet ədəbiyyatına yabançıdır, sovet xalqının, dövlətini mənafeyi üçün zərərlidir və bizim məcmuəmizdə buna yol verilməməlidir.

Əsas nöqsan kimi bir də o qeyd olunurdu ki, son illər ərzində bədii əsərlərin ideya istiqamətinə və sənət keyfiyyətinə olan tələbkarlıq azalıb, nəticədə bir sıra zəif, sönük, ciddi səhvləri olan əsərlər yaranıb. Belə əsərlərdə bir qayda olaraq sovet adamları eybəcər karikatura şəklində, meşşan zövqünə və əxlaqına malik və yarımmədəni bir şəkildə təsvir olunur. Mənfi şəxslər isə daha parlaq, qüvvətli, iradəli və bacarıqlı göstərilirlər. Qəribədir ki, 40-50-ci illərdə folklora, milli ənənəyə, tarixi mövzulara qayıdışa da əyri güzgüdən baxılır, bu cəhət onların həyatı bir sənətkar kimi dərindən öyrənməmələri ilə əlaqələndirilirdi. Guya tarixi mövzuda yazmaq asan olduğuna görə yazıçılar bu yolu seçirlər.

Nəsr və dramaturgiya ilə yanaşı, poetik sənət əsərləri də ciddi sınaq qarşısında qalmışdı. Şairlərin intim-mənəvi düyğuları ədəbiyyata gətirməsi şəxsi bədbin hissləri tərənnüm etmək kimi qiymətləndirilir, qəzəl və nəğmələr yazan şairlər müasirliyə laqeyd münasibət bəsləməkdə günahlandırılırdı. Beləliklə, neftdən, pambıqdan, sovet gerçəkliyindən yazmayan sənətkarlar çox kəskin ittihamlar eşitməli olur, onlara müxtəlif təzyiqlər edilirdi.

**Istifadə olunan ədəbiyyat**

1. Əliyev H.Ədəbiyyatın yüksək borcu və amalı. Bakı:"Ozan"1999
2. Elçin. Azərbaycan ədəbi prosesində nə baş verir. "525-ci qəzet" , 25 iyul, 2009
3. H.Mehdi. Ədəbi qeydlər.Yeni dövrün ədəbi qəhrəmanları. Bakı: "Uşaqgəncnəşr", 1947
4. Elçin. Azərbaycan ədəbi prosesində nə baş verir. "525-ci qəzet" , 25 iyul, 2009
5. M.Arif ədəbi tənqidi məqalələr. Bakı:" Azərnəşr" 1958,
6. Talıbzadə K.Tənqidimizin nüfuzu. "Ədəbiyyat və incəsənət" qəzeti, 1964, 14 aprel.